# Niyyət müqaviləsi №

**Bakı şəhəri** “13” sentyabr 2024 il

Bu müqavilə bir tərəfdən, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmiş, hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6 olan nizamnamə əsasında fəaliyyət göstərən Azərbaycan Dövlət İqtisad Universiteti PHŞ-nin (UNEC) iqtisadi məsələlər üzrə prorektoru Nəsimi Zakir oğlu İsmayılov şəxsində (bundan sonra UNEC) digər tərəfdən isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmiş, hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Abbasqulu Ağa Bakıxanov küçəsi 23 olan nizamnamə əsasında fəaliyyət göstərən Azərbaycan Tibb Universitetinin inzibati-təsərrüfat işləri üzrə prorektoru İlqar Abdulla oğlu Mehrabov şəxsində (Bundan sonra ATU) aşağıdakı şərtlərlə bağlanılmışdır:

## 1. Müqavilənin predmeti

1.1. Bu müqavilə ATU-nun Bakı şəhərində yerləşən 1226 yataqdan ibarət tələbə yataqxanalarında UNEC-in yönəltdiyi təhsilalanları boş yerlər olduqda yataqxana ilə təmin etmək məqsədilə bağlanır.

1.2. ATU-nin tələbə yataqxanalarında boş yerlər olduqda UNEC tərəfindən tövsiyyə edilmiş tələbə ilə ATU arasında kirayə müqaviləsi imzalanır və onlar arasında yataqxanalarda qalma ilə bağlı yaranan bütün münasibətlər həmin müqavilə ilə tənzimlənir.

## 2. Tərəflərin hüquq və vəzifələri

**2.1. UNEC-in hüquqları:**

2.1.1. UNEC tövsiyyə etdiyi təhsilalanların maddi məsuliyyətini daşımır;

2.1.2. UNEC təhsilalanların yataqxana qaydalarına əməl etməmələri üzrə məsuliyyət daşımır;

2.1.3. UNEC təhsilalanı ilə ATU arasında bağlanmış kirayə müqaviləsinin bir nüsxəsini ATU-dan tələb edə bilər;

2.1.4. Qanunvericiliyin tələblərindən irəli gələn digər hüquqlar.

**2.2. UNEC-in vəzifələri:**

2.2.1. UNEC yataqxanada yaşayış yeri ilə təmin olunmağa ehtiyacı olan təhsilalanlarını ATU-nun tələbə yataqxanaları haqqında məlumatlandırır və yerləşdirilməsi üçün tövsiyyə edir;

2.2.2. UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanların yataqxanalarda yaşayış yeri ilə təmin edilib edilməməsi ilə bağlı məlumat əldə edir.

**2.3. ATU-nun hüquqları**

2.3.1. UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanlarla tələbə yataqxanalarında boş yerlər olduqda Kirayə müqaviləsi bağlamaq;

2.3.2. Qanunvericiliyin tələblərindən irəli gələn digər hüquqlar.

**2.4. ATU-nun vəzifələri:**

2.4.1 UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanları tələbə yataqxanalarında boş yerlər olduqda yataqxana ilə təmin etmək məsələsinə baxmaq;

2.4.2 Təhsilalanlarla kirayə müqaviləsi bağlamaq (maddi məsuliyyət barədə müddəa nəzərdə tutulmaqla);

2.4.3 Kirayə müqaviləsi bağlanmış təhsilalanları Yataqxana qaydaları ilə tanış etmək;

2.4.4 Təhsilalanların həyat və sağlamlığının qorunması üçün yataqxanalarda qüvvədə olan qanunvericiliyin tələblərinə, müvafiq standart və normalara uyğun şəraiti təmin etmək;

2.4.5 Qanunvericiliyin tələblərinə uyğun digər vəzifələr.

3. **Mübahisələrin həlli**

3.1 Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələr bir qayda olaraq danışıqlar vasitəsilə həll edilir;
3.2 Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələrin danışıqlar vasitəsilə həll edilməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məhkəmə yolu ilə həll edilir.
3.3 Bu Müqavilə ilə tənzimlənməyən digər məsələlərin həllində Azərbaycan Respublikasının qanunvericiliyi rəhbər tutulur.

4. **Müqavilənin ləğvi və dəyişdirilməsi qaydaları və əsasları, tərəflərin məsuliyyəti**

4.1. Müqavilə Tərəflərin razılığı ilə və ya Tərəflərdən birinin tələbi ilə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş qaydada və əsaslarla ləğv edilə bilər;
4.2. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab edilir.

5. **Yekun müddəalar**

5.1 Müqavilə imzalandığı gündən qüvvəyə minir və tərəflərin hər hansı birinin etirazı olmadığı müddətdə qüvvədədir;
5.2 Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib olunmuşdur və bir nüsxəsi UNEC-də, digər nüsxəsi isə ATU-da saxlanılır.

6. **Tərəflərin ünvanları (hüquqi ünvanları) və rekvizitləri**

**Azərbaycan Dövlət İqtisad Universiteti PHŞ (UNEC):**

VÖEN: 1700091281
Ünvan/hüquqi ünvan:Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6
S.W.I.F.T: AIIBAZ2X
Bankın adı: "Kapital Bank" ASC-nin Səbail filialı
Bankın VÖEN-i: 9900003611
Bankın kodu: 200059
H/h: AZ96AIIB33010019443507362105
M/h: AZ37NABZ01350100000000001944

İsmayılov Nəsimi Zakir oğlu

İmzası: ____________
M.Y.

**Azərbaycan Tibb Universiteti**

VÖEN: 1400457111
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Abbasqulu Ağa Bakıxanov küçəsi 23
SWIFT: AIIBAZ2X
Bank:Kapital Bank" ASC 1 saylı Nəsimi rayon filialı
VÖEN: 9900003611
Kod: 200112
H/H: AZ96AIIB38060019440137243111
M/h: AZ37NABZ01350100000000001944

Mehrabov İlqar Abdulla oğlu

İmzası: ____________
M.Y.